# Qəzet tarixi salnamədir

**Söz adamı olmaq**

Dil ünsiyyət vasitəsidir, söz isə anlayışın ifadəsidir. Söz ürəyin inikasıdır. Söz ürəyin reallığıdır.- Söz həyatın sənədidir və yazı ilə sənədləşdirilir. Bu sənədləşdirilmədə isə sözün bilicisi olmaq, tarixi bayağılaşdırmamaq, doğru və düzgünlüyü əsas meyar seçmək lazımdır. Söz dənizi sözü anlayan və ona düzgün istiqamət verənlər üçündür. Əgər sözə yalnışlıq azacıq da olsa sirayət edərsə o öz dəyərini itirər. Sözə məna çalarlığını söz sərrafları verərlər. Düşünülmüş və beyin süzgəcindən keçən sözlər həmişə dəyərlidir. Ta qədimdən söz sərrafı olanlar sözün dəyərini həmişə qoruyub saxlamışlar. Söz adamı yetişdirmək üçün "söz aləmini" təkmilləşdirmək düşünülmüş, tam mənada ayrıca bir elm yaradılmışdır. Bu isə mənim fikrimcə jurnalistikadır. Jurnalistika müxtəlif sahələr üzrə inkişaf etsə də, ən başlıca fikir həqiqəti hər an bəyan etmək məqsədi güdməlidir. Məmməd Araz şeriyyətində deyildiyi kimi, vicdan ovuclara sağılmamalıdır. Mən isə jurnalistika sahəsində çalışan biri kimi həmişə düşünürəm ki, vicdan ovuclara sığışmamalıdır. Yenə də Məmməd Araz yaradıcılığının dili ilə desək, ürək mühəndisdir qələm də bənna. Əsl jurnalist peşəkarlığı məhz belə olmalıdır. Əsil jurnalist peşəkarlığını isə oxumadan duymaq olmaz ki!.. oxumasaq jurnalistin nə ürəyinin mühəndislik bacarığını, nə də qələminin bənnalığını görə bilmək olar.



Yaşadığımız zaman inkişaf etdikcə bu günümüz dünənə, dünənimiz isə keçmişə çevrilir. Keçmiş isə bəzən bəziləri tərəfindən tədricən unudulur. Keçmiş unudulmamalı, tarixi bir dərs kimi hər kəsin könül düşüncələrində öz yerini qoruyub saxlamalıdır. Unutqanlıqla mükəmməl insanlıq bir araya gələ bilməz.

İndi televiziya proqramlarında sensasiyon xüsusiyyətli şou verilişlərə daha çox üstünlük verilir. Belə proqramlar təşkil edildikdə də milli mentalitet daima diqqət mərkəzində saxlanılmalıdır.

Biz qəzetçiyik. Ona görə də informasiyanın qəzetçilik sahəsi haqqında qısa da olsa söz açmaq istərdim. Universitetin I kursunda oxuduğum ildən rayon qəzetində fəaliyyətə başlamışam.

1980-ci ildən oxuduğum ali məkdəbdə də peşəmlə bağlı söz xiridarlarından, şair, filoloq, dilçi, jurnalist, yazıçı, iqtisadçı və s. alimlərdən dərs almışam, bütün jurnalistika fakultəsinin tələbələri kimi.

O illərdə rayon qəzetimiz "Qalibiyyət" adlanırdı.

**Rayonumuzun mətbuat orqanı**

Rayonumuzda mətbəənin əsası 1933-cü ildə qoyulub. Qəzet fəaliyyət göstərdiyi dövrlərdə dörd adda buraxılıb. 1933-1952-ci illərdə "Bolşevik Mübarizi", 1953-1962-ci illərdə "Mübariz", 1966-1990-cı illərdə "Qalibiyyət" adı ilə nəşr olunub. 1963-1965-ci illərdə rayonların birləşməsi ilə əlaqədar Göyçayda (Ağdaşda çıxan "Əmək" qəzeti də daxil olmaqla) "Yeni həyat" adı ilə üç rayonun birləşmiş qəzeti kimi

(Ardı 8-ci səhifədə).

# Qartal nəfəslidir sözün nəfəsi

**Fərqlilik...**

Artıq 40 ildən çoxdur ki, onu tanıyıram. Gəncliyinin, gənc ikən ağsaqqal düşüncələrinin, milliliyə hörmətinin, millətinə-xalqına sonsuz sevgisinin, bu günündə varkən sabahkı yaşamını düşünməsinin, keçmişdən ibrət götürülməsini, tarixi dərsləri də, örnək halları da hər zaman qoruyub saxlamasının, özündən çox qarşısındakını düşünməsini, qayğıkeş və mehribanlığını, insanlarla ünsiyyətdə səviyyə tərzinin, ürəkoxşar qədər yüksək olduğunun şahidi idim. Danışıq tərzi, insanlara yanaşma xüsusiyyəti, etik normalara bu qədər riayətçiliyi, əsəblərini qəlbində gizlədərək cilovlamağı bacarması onun fərqli cəhətlərindən idi. Daxili zənginliyi, iç dünyasının gözəlliyi, humanistliyi onun bütün varlığına sirayət etmişdi. Düşüncə tərzi, tam xisləti, xarakteri insanı yormayan söz-söhbətlərindən duyulur, davranış tərzindən sezilirdi. Məhz buna görə də hələ o illərdə belə - 1980-ci illərdə redaksiya və mətbəə kollektivi onu çox sevərdi, yaşından asılı olmayaraq adı belə hörmətlə çəkilərdi.

Bəlkə də, böyüdüyü ailə, mühit onu belə formalaşdırırdı, bəlkə də bu alicənablıq xüsisiyyətləri də soykökündən ona miras qalmışdı. Tanrım ona hər gündə deyil, hər an insan kimi insan olmağı ərməğan etmişdir. Bütün bunlar həqiqi bir jurnalist düşüncələri deyil, illərlə şahidi olduğu bir insan həyatı haqqında dediyi beş-üç kəlmədir. Çünki o insanı tanıdıqca tanımaq istəyir, dinlədikcə insanlıq dəryasına düşdüyünü hiss edirsən. Xalqına, millətinə, elinə, obasına olan sevgi zənginliyi onunla hər addımda hiss olunur.

Bax, bu insanı sevdirən fərqli cəhətləridir.

**Kimdir o?..**

Oxuduğum "Hekayələr, xatirələr" kitabında onu belə tanıdılar: Xalqın, millətin fədakar təmsilçisi, yaxud qəlbi bayraqdar, qələmi bayraq adam... Azərbaycan həqiqətlərinin yorulmaz təbliğatçısı...

Ramin Məmmədov 1957-ci ilin aprelin 20-də Qəbələ rayonunun Bum kəndində ziyalı ailəsində doğulmuşdur. Atası Hüseyn Məmmədov (1920-2002) Böyük Vətən Müharibəsi iştirakçısı, BDU-nun məzunu, sabiq təhsil şöbəsinin müdiri, qabaqcıl maaif işçisi olmuşdur.

Ramin Məmmədov 1972-ci ildə natamam orta təhsillə Bakıda, Bakıxanov qəsəbəsindəki 74 saylı orta texniki peşə məktəbində 3 il oxumuş, orta təhsilini başa vurmuş və tornaçı peşəsinə yiyələnmişdir.




1976-1978-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

Əsgəri xidmətini başa vurduqdan sonra əvvəl işlədiyi Balaxanı qəsəbəsindəki M. Əzizbəyov adına Kənd Təsərrüfatı Təmiri zavodunda ixtisası üzrə işə başlayır. O, 2 dəfə ali məktəbə qəbul olmaq üçün imtahan verir, lakin qəbul ola bilmir. Azərbaycanda tələbə adı ala bilməməsi ona pis təsir edir və o, o dövrün bəzi gəncləri kimi Rusiyaya üz tutur, Nijnevartovskidə işə başlayır. Burada sıravi milislikdən əməliyyat müvəkkili vəzifəsinə qədər ucalır. O, Azərbaycanla daim əlaqə saxlayır; ölkə ilə bağlı bütün problemlərə, hadisələrə öz münasibətini bildirir, "Voennaya ensiklopediya" kitabının redaksiyası, "Pravda" qəzeti, "Voenno-istoriçeskiy" jurnalı və başqa mətbu orqanları ilə əlaqə saxlayır və öz yazıları ilə Azərbaycan həqiqətlərini oxucularına çatdırır. Ramin Məmmədovun özünəməxsus ən gözəl cəhəti o idi ki, o, Vətəndən uzaqda yaşadığı dövrdə Vətən həqiqətlərini təbliğ etmiş, həmvətənləri haqda kitablar yazmış, mühacirətdə olan həmvətənləri haqda qəzet və jurnallarda da daima çıxışlar etmişdir.

Ramin Məmmədov Vətənindən uzaqlarda yaşadığı dövrdə Nijnitagl xüsusi milis məktəbində orta ixtisas hüquq təhsili və Tümen Vilayət Partiya Komitəsi nəzdində Siyasi Universitetdə ideoloji kadrlar fakültəsində ali siyasi təhsili almış və uzun illər ştatdankənar müxbiri olduğu "Leninskoye znamya" qəzeti nəzdində ikiillik jurnalist sənətkarlığı kursunda oxumuşdur.

Ramin Məmmədov bədii yaradıcılığa 1971-ci ildən rayonumuzun "Qalibiyyət" (indiki "Qəbələ") qəzeti səhifəsindən başlamışdır. Ordu sıralarında xidmət etdiyi zaman kəsiyindən etibarən başqa qardaş respublikalarının gənclərinin bizim xalqın bəzi gəncləri haqqında yanlış fikri; bizləri "ancaq bazarlarda meyvə satanlar" kimi tanımaları, onun yaradıcılığının birdəfəlik azərbaycançılığın təbliğinə yönəlməsinə səbəb olur.

Nijnevartovskidə yaşadığı illərdə "Kommunist" (indiki "Xalq qəzeti"), "Qəbələ", "Molodyoj Azerbaydjana", "Yurddaş", "Mübariz keşikdə", "Mestnoye vremya", "Tyumenskaya pravda", "Krasnaya zvezda", "Pravda", "Komsomolskaya pravda", "Neftyanik" və s. qəzetlərdə millətimizin, ölkəmizin həqiqətləri haqda məqalə, oçerk, zarisovka və s. publisist yazılarla çıxış etmişdir.

O, Qarabağ hadisələri başlayan kimi bu faciənin təbliğini daim diqqət mərkəzində saxlamışdır. 1989-cu ilin aprel ayında Azərbaycana ezam olunaraq rus millətindən olan həmkarları ilə Bakı Dəmir Yolu Nəqliyyatı Milis İdarəsi nəzdində Bakı - İrəvan, İrəvan - Bakı, Bakı - Qafan, Qafan - Bakı"-marşrutları üzrə sərnişin qatarlarına nəzarət etmiş, asayişi qorumuş, insanların əmin-amanlığını təmin etmişdir.

O, 1992-ci ildə leytenant rütbəsində işini dəyişərək Vətənə gəlmiş, may ayından Qaradağ RPİ-nin 10-cu PB-də xidmətini davam etdirərək, dəfələrlə hərbi əməliyyatlar gedən Qarabağ bölgəsinə ezam olunmuşdur. 2004-cü ildə mayor rütbəsində pensiyaya çıxmışdır.

**Kitab ən gözəl sərvətdir**

Kitab ən gözəl sərvət, xalqına müəllif mirasıdır. Ələlxüsus ziyalı qələmi ilə, xalqın mənafeyinə xidmət edən, gerçək və həqiqətləri üzə çıxaran, təbliğ və müdafiə edən materiallar əsasında yazılan kitablar. Nəşr olunan aktual mövzu və həyat həqiqətləri ilə dolğun ifadə olunmuş kitablar müəllifinin əbədiyaşarlığıdır. Məhz Ramin Məmmədov kitablarının səhifələrində, ürəklə yazdığı hər sətirdə yaşayır və yaşayacaq. Araşdırmaçı yazıçının 42 kitabı işıq üzü görmüşdür.

Ramin Məmmədov vətənpərvər biridir. "Kredo" qəzetinin baş redaktoru, ədəbiyyatşünas Əli Rza Xələflinin dediyi kimi, mundir altında kövrək ürək daşıyan, prinsipial və əqidəli, kapitan rütbəli yazıçı həm də tədqiqatçıdır. Öz ailə büdcəsindən kəsib, ildə bir neçə dəfə Rusiyanı şərqdən qərbə, şimaldan cənuba gəzib-dolaşıb, maraqlı insanlarla, onların yaşayış, iş və faydalılığıyla bağlı materiallarla geri qayıdaraq gördüklərini, eşitdiklərini nəşr etdirdiyi kitablarda oxucularına təqdim etmişdir. İndiyədək Rusiyadakı Azərbaycan milli diaspor təşkilatları haqqında otuza qədər kitab yazmışdır, dörd kitabı isə Qəbələnin ziyalılarına, tarixinə, toponimlərinə, "Qəbələ" qəzetinin keçdiyi şərəfli yola həsr etmişdir. Onun haqqında yazılanları oxuduqca fikrinin aynasında onu bir daha yenilməz bir ziyalı kimi canlandırıram. Qarşılaşdığı və yaşadığı problemlərə rəğmən neqativliyi qəlbinə gömərək həmişə nikbin xarakterini biruzə verən Ramin müəllimin kitabları hər biri ayrılıqda sanki bir insanın taleyidir. Bu talelər isə sonda bir xalq sevgisi,ziyalı məhəbbəti ilə, insanlıq nuru ilə çulğaşmış şəkildə vicdanlara; vicdanlılığa yaşıl işıqdır. Ayrı-ayrı ziyalılarımız öz kitablarında ziyalılardan söz açanda onun haqqında o qədər xoş təəssüratlar yazırlar ki... "Ramin ziya işığıdır, ziyalı vurğunudur. Əvvəlcə Qəbələ ziyalılarını aradı,axtardı, onlar haqda kitablar yazdı. Sonra Rusiya Federasiyasının saymaqla bitməyən şəhərlərinə üz tutdu: həmyerlilərini soraqladı, onlarla tanış oldu, Vətənə və millətə baş ucalığı gətirənləri vəsf etdi; onlar haqqında 20-dən çox kitab yazdı.

Ona "ömrünü-gününü sözə çulğalamış adam", "polis libaslı cəfakeş qələm fəhləsi", "iddiasızlıq və təmizlik, saflıq və sadəlik libaslı bir insan" da deyirlər və bu deyimlər tam mənada bir həqiqətdir. Bu həqiqət isə onun müəllifi olduğu, redaktoru olduğu və ön söz yazdığı kitablarda tam aydınlığı ilə əks olunur. O kitablar "Vətən həsrətilə keçdiyim yolar", "Yaddaşımın izi ilə", "Qəbələ: insanlar, talelər, ziyalılar" 3 cilddə, "Neftin işığında", "Səfərnamə", "Rusiya - ziyalılarımız, mətbuatımız, münasibətlərimiz", "Sibir dəftərindən", "Qəbələ ziyalıları", "50-ci bahardan boylananda", "Rusiyada Azərbaycan mühacirət mətbuatı" "Ot Baku do Moskvı", "Ot Baku do Moskvı i dalee...", "Puteşestvie" və s. adlarla Azərbaycan və rus dillərində nəşr olunan o kitablar məhz onun həyat və yaradıcılığının, böyük ürəyinin, düşüncə tərzinin, xarakterinin əks olunmuş yazılı ifadəsidir.

Şeiri, romanı, kitabı ürəklə yazarlar, ürək isə duyğulardan, düşüncələrdən bəhrələnər. Əgər ürək ağıl ilə düşüncə tərzinin birgə təsirilə döyünərsə, deyilən hər söz, yazılan hər sətir yaddaşlara bir işıq seli kimi sirayət edəcək. Ramin müəllimin yaradıcılığı kimi... Bu yaradıcılıq "məhsulları" ilə tanış olduqca orada özünü, qohumunu, tanışını axtarırsansa, demək ürəklə mütaliə etmisən. Bu yaradıcılıq özü oxucusuna sanki Məmməd Araz şeirinin dili ilə deyir:

**Qartal nəfəslidir sözün nəfəsi,**<br>**Duyğusuz ürəkdə bayquş uluyur.**<br>**Zamanın gözləri mizan-tərəzi,**<br>**Çəkin var, yükün var, səsin var,**<br>**buyur...**

Bax, elə buna görə də yazıçı-publisist Ramin Məmmədovun kitablarının sayı hər il artır və artacaq!

Uğurlarınız davamlı olsun!

**Bibixanım İSAYEVA.**